# AVROPA ŞURASININ ÜZV DÖVLƏTLƏRİNİN MERLƏRİN VƏ SEÇİLMİŞ YERLİ VƏ REGİONAL NÜMAYƏNDƏLƏRİN QARAÇILARA QARŞI KAMPANİYA ƏLEYHİNƏ BƏYANNAMƏSİ

## MƏN, MER / SEÇİLMİŞ YERLİ VƏ REGİONAL NÜMAYƏNDƏ OLARAQ

Yerli və Regional Hakimiyyətlər Konqresinin və Avropa Şurasının Baş katibinin qaraçılarla bağlı məsələlər üzrə xüsusi nümayəndəsinin seçilmiş bütün yerli nümayəndələrə qaraçılara qarşı kampaniya əleyhinə aydın mövqe tutmaları ilə bağlı etdikləri çağırışı **nəzərə alaraq**,

Avropa Şurasının üzv dövlətlərinin imzaladığı və/ya ratifikasiya etdiyi insan hüquqları üzrə beynəlxalq sənədləri xüsusən də Avropa İnsan Hüquqları Konvensiyasını (AİHK) və onun Protokollarını, (yenidən nəzərdən keçirilmiş) Avropa Sosyal Xartiyasını, 1993-cü ildə Ümumdünya insan hüquqları konfrası tərəfindən qəbul edilmiş Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyasını irqçilik, ksenofobiya, antisemitizm və dözümsüzlüklə mübarizə üzrə Bəyannaməni  və Fəaliyyət Planını ("Vyana Bəyannaməsi"), Qaraçılarla bağlı Strasburq Bəyannaməsini (2010) və Avropa Şurasının Qaraçıların və köçərilərin inteqrasiyası üzrə Tematik Fəaliyyət Planını **nəzərə alaraq**;

Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının (CERD) irqi ayrı-seçkiliyi "[...] məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud üstün tutulmanı [...]" bildirən1-ci Maddəsini **nəzərə alaraq**;

İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) qaraçılara qarşı aparılan kampaniya və irqçiliklə mübarizə ilə bağlı 13 saylı Ümumi Siyasət Tövsiyəsini (2011) **nəzərə tutaraq**;

Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin "Qaraçıların inteqrasiyası yerli və regional hakimiyyətlər üçün çağırış kimi" adlı 333 saylı Qətnaməsini (2011), "Qaraçı gənclərin iştirak vasitəsilə səlahiyyətləndiriıməsi üzrə" 366 saylı Qətnaməsini (2014), "Avropada artan ekstremizm, ksenofobiya və qaçqınlarla bağlı böhranı kontekstində qaraçıların və köçərilərin vəziyyəti haqqında" 403 saylı Qətnaməsini (2016) və Merlər zirvə toplantısının Son Bəyannaməsini (2011) **nəzərə alaraq**;

qaraçılara qarşı kampaniyanın irqçiliyin spesifik forması olduğunu **dərk edərək**;

Bu beynəlxalq insan hüquqları sənədlərinə uyğun olaraq irq, rəng, milli mənşə və ya milliyət kimi əlamətlərə görə siyasi azadlıqlardan istismar etmək və ya zərər vurmaq üçün və ya bu əlamətlərə əsaslanaraq seçicilərin rəğbətini qazanmaq məqsədilə sui-istifadə edilməməsini xatırlayaraq;

Yerli və regional hakimiyyət orqanlarının demokratik siyasi prosesdə iştirakçi kimi xüsusi vəzifələri və məsuliyyətlərindən **xəbərdar olaraq**, siyasi qərarların alınması prosesində müxtəlif mövqelər və onların inteqrasiyası üçün platformanı təşkil edərək, beləcə fərqli sosial qruplar arasındakı maraq və fikir münaqişələrini iştirak etməmə və münaqişələr vasitəsilə deyil dialoq yolu həll etmək üçün cəmiyyətə şərait yaradaraq və siyasi prosesdə fəal iştirak üçün nümayəndələrin müxtəlif səviyyələrdə seçərək;

Siyasi partiyaların cəmiyyəti əks etdirdiyi və ya bu məqsədlə çalışdığı üçün etnik azlıqların, xüsusilə də qaraçıların və köçərilərin siyasi prosesdə təmsil olunmasının demokratik prosesin ayrılmaz parçası olduğuna **inanaraq**;

• Insan hüquqlarını və demokratik prinsipləri **müdafiə etməyə**, qaraçılara və köçərilərə qarşı ayrı-seçkiliyin bütün formalarını, şiddəti, qısnamanı, nifrətin salınmasını və nifrət nitqini rədd etməyə
• müxtəlif etnik və ya milli mənşəli şəxslər arasında düşmənçiliyi və ya ixtilafı yaradan və ya buna təhrik edən, yarada və yə ya təhrik edə biləcək düşüncələri və mövqeləri göstərməyi, nəşr etməyi və ya etdirməyi, paylamağı və ya hər hansı bir şəkildə dəstəkləməyi **rədd etməyə** və qaraçılara və köçərilərə qarşı sıralarımızda olan olan hisslərlə və hərəkətlərlə ciddi şəkildə mübarizə aparmağa
• irqi və etnik önyarqıları və irqi nifrəti yayan və buna cəhd edən hər istənilən siyasi partiyalar və ya yerli və regional hakimiyyət orqanları ilə hər səviyyədə siyasi alyansın və əməkdaşlığın bütün formalarından çəkinməyə
• qaraçıların və köçərilərin demokratiyanın bütün səviyyələrində bərabər şəkildə təmsil edilməsinə **nail olmağa**, bu qruplardan olan şəxslərin yerli və regional səviyyədə siyasi vəzifələrə cəlb edilməsinə yardım etmək və bunu dəstəkləmək üçün yerli və regional hakimiyyət orqanı rəhbərini xüsusi olaraq təşviq etməyə
• yerli və regional hakimiyyət orqanları üçün işləyən bütün şəxslərin yuxarıdakı prinsiplərdən xəbərdar olmalarını və hər zaman bu prinsiplərə uyğun olaraq davranacaqlarını təmin etmək məqsədilə uyğun tədbirləri görəcəyimə

**SÖZ VERİRƏM**

° ° ° ° °

**İmzalama proseduru haqqında məlumat,**

**Bələdiyyə/Region:**
___________________________________________________________

**Ölkə:**

______________________________________________________________________

**Soyad:**

______________________________________________________________________

**Ad:**

__________________________________________________________________

**Siyasi mandat | mer və ya seçilmiş dövlət məmuru:** ____________________________

**E-mail:**

_____________________________________________________________________

İmzalanmış bəyannaməsini Qaraçıların və köçərilərin inteqrasiyası üçün şəhərlərin və regionların Avropa alyansının katibliyinə göndərməyinizi xahiş edirik: alliance@coe.int.